


# Şəhid ailələrinə bayram sovqatı paylandı



Təbiət yenə yaşıl libasa bürünüb. Çiçək açan alça, ərik, şaftalı ağacları sanki əlvan rəngli çətirlər tutub. Bənövşələrin, nərgiz güllərinin xoş ətri ılıq yaz mehinin qanadlarında ətrafa yayılır. Beləcə, elimizə, obamıza bahar gəlir. Hər gəlişi yeni olan yaz təbiəti könlümüzə xoş duyğular, ruhumuza yeni ovqat gətirir. Gözəl adət-ənənələri ilə dünya xalqları arasında seçilən Odlar yurdu Azərbaycanda min illərdir ki, bahar, Novruz toy-bayramla qarşılanır. Xonçalar tutulur, min bir bərəkətli süfrələr açılır. Qohum-qardaş bayramlaşır, küsülülər barışır, mehribanlaşırlar.



Laçından olan məcburi köçkünlərin məskunlaşdığı Ağcabədi rayonu ərazisindəki Taxtakörpü qəsəbəsi də bu günlər bayram libasındadır. Yaxın-uzaq obalardan çox sayda əhalinin toplaşdığı meydan yenə izdihamlıdır. Novruz tonqalının alovlu dilimləri göyə yüksəlir. Oynaq



musiqinin sədaları altında cavanlar şövqlə rəqs edirlər. Laçın Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Aqil Nəzərli mərasimdə çıxış edərək rayon sakinlərinə Novruz təbriklərini, xoş arzularını çatdırır. Hər sözdə, hər cümlədə dövlətimizə, ordumuza, dövlət başçısının müdrik siyasətinə, Silahlı Qüvvələrin Ali Baş Komandanımızın qətiyyətinə və yenilməz iradəsinə güclü inam duyulur.

Novruz şənliyinin keçirildiyi bu meydan Laçın camaatı üçün artıq müqəddəs bir məkana çevrilib. 24 dekabr 2011-ci il laçınlıların heç zaman unutmayacağı bir tarixdir. Prezident İlham Əliyev Taxtakörpü ərazisində 552 ailəlik qəsəbənin açılışına gəlmişdi. Taxtakörpü tam orta məktəbin direktoru Abuzər Abuzərov həmin görüşü belə xatırlayır:

- Hər gəlişi bizim üçün əziz bayram olan Prezident İlham Əliyev səfər çərçivəsində yeni qəsəbə ilə yanaşı, məktəbin açılışı mərasimində də iştirak etdi. Mənzil rahatlığına qovuşan ailələri təbrik edən dövlət başçısının söylədiyi səmimi fikirlər yaddaşımıza həkk olmaqla ürəyimizi riqqətə gətirdi. O sözlər indi də qulağımdadır: “Mən əlli yaşımı möhtəşəm saraylarda deyil, burada ailə üzvlərimlə birlikdə qeyd edirəm, mənim ailəm sizsiniz”. Həmin anı heç vaxt unuda bilmərəm. Görüş iştirakçıları yamanca kövrəlmişdilər. Gözlərdə sevinc yaşları parlayır, çöhrələrdən təbəssüm süzülürdü. O anda, elə indi də biz millət olaraq bir xoşbəxt ailəyik. Bu ailənin səmimiyyətinə, yenilməz birliyinə şübhə edənlər yanılırlar. Biz dövlət başçısının ətrafında sıx birliyimizlə, onun yeritdiyi müdrik siyasəti birmənalı şəkildə müdafiə etməyimizlə bütün problemlərin həllinə nail olacaq, torpaqlarımızı erməni işğalından azad edib doğma yurd yerlərinə qayıdacağıq.

Şənlik davam edir. Kimi tonqalın üstündən hoppanır, kimi yumurta döyüşdürür, kimi də rəqs edir. Novruz şənliklərinin əsas personajları olan Kosa və Keçəlin məharətli ifaları alqışlarla qarşılanır.

Bu əziz bayram günündə heç kim yaddan çıxmayıb. Rayon icra hakimiyyəti bütün şəhid ailələrinə bayram sovqatı çatdırıb. Qarabağ savaşında həlak olan laçın şəhidlərinin sayı 304 nəfərdir. Mərasimdə şəhidlərin xatirəsi anıldı, onlara Allahdan rəhmət diləndi.

Laçın camaatındakı yüksək əhval-ruhiyyə, güclü inam Qarabağ savaşında böyük Qələbənin tezliklə reallaşacağından soraq verir. Müdriklər deyir ki, inam qələbənin yarısıdır. Biz Qələbəyə inanırıq.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

# Lahıcın yazı da gözəldir

Ölkəmizin qədim yaşayış məntəqələrindən olan Lahıc və burada yaşayan sakinlər hər zaman binə saldıqları yurd yerinə öz sədaqətləri və sonsuz vurğunluqları ilə halallıq toxumu səpiblər. Bu toplumun tarixin bütün mərhələlərində vətəndaşlıq mövqeyi nümayiş etdirməsi artıq isbata ehtiyacı olmayan aksiomdur. Zəhmətə, halallığa alışan bu insanlar ürəklərinin geniş olması, mehribanlıqları ilə də seçiliblər.



Bu gün lahıclıların üzündən bahar günəşinin doğurduğu parıltının əks olunduğu xoş təbəssüm cücərtiləri hiss olunmaqdadır. Təbiətin oyanışı ilə yavaş-yavaş bu insanların da çöhrəsi açılır, onlar artıq yaxınlaşmaqda olan müqəddəs Novruz bayramının şövqünü yaşamaqdadırlar. Tonqalların şahə qalxan alov dilimləri isə insanların həyat eşqini, qurub-yaratmaq əzmini daha da artırır.

Azərbaycanın hər bölgəsində bu bayram mahiyyət etibarilə eyni məzmun daşısa da, özünəməxsus şəkildə qeyd edilir. Ölkəmizdə yaşayan xalqların bir araya gələrək bu əziz bayramı qeyd etmələri isə əsl multikulturalizm nümunəsidir. Lahıcda da Novruz bayramı hər zaman təmtəraqlı qeyd edilməsi ilə seçilir.

Hələ sovetlər dönəmində - bir çox adət-ənənəmizin qadağan edildiyi bir dövrdə belə Novruz bayramının keçirilməsinin qarşısını ala bilməmişdilər. Axı bu, əziz bayramdır, hər şeydən əvvəl yeni gün, yazın gəlişi, torpağın və təbiətin oyanması, qışın ömrünü başa vurması, ruzi-bərəkət simvolu olan taxılın göyərməsi əlamətidir. Novruz bayramı İslamdan çox-çox əvvəl qeyd edilib. Lakin sonradan müəyyən səbəblər bu mərasimin dinlə bağlanmasına səbəb olub. Məsələn, Lahıcda və bir çox yerdə Novruzu “Cənab Əli” bayramı da adlandırırlar. Bu da Əli əleyhissəlamın xilafət taxtına gəlməsinin məhz Novruz gününə təsadüf etməsi ilə xarakterizə olunur. Peyğəmbərimiz Məhəmməd əleyhissəlam da bu günün bayram olduğunu qeyd edib. Bu haqda “Qurani-Kərim”də də ayə vardır.

Məlum olduğu kimi, Novruza aparan yolun müjdəçisi olan çərşənbələr - su, od, yel, torpaq çərşənbələri də xüsusi təmtəraqla qeyd edilir. Çərşənbələrdə Novruzdakı adət-ənənələrin çoxu təkrar olunsa da, hər birinin özünəməxsus əlamətləri var.

Respublikamızın digər yaşayış məntəqələrində olduğu kimi, Lahıcın da məxsusi bayram inancları mövcuddur. Belə ki, həmin günlər Allaha edilən dualar daha çox olur. Bunun da səbəbi bu günlər Allahın dərgahının açıq olmasıdır. Bayram axşamları qəbiristanlıqlarda Haqqın rəhmətinə qovuşmuş insanlar yaxınları tərəfindən ziyarət edilir ki, bu da ölülərin ruhlarının doğmalarını gözləmələri şəklində izah olunur. Bayramdan sonrakı 4 gün isə hər fəslin necə keçəcəyinin göstəricisi kimi dəyərləndirilir.



Bayram axşamı hamı öz evindəki süfrənin ətrafında oturmalıdır. Çünki Allah hər kəsə qismətinə görə ruzi verir, onu başqa yerə aparmaq olmaz. Yalan danışmaq, küsülü qalmaq məqbul sayılmır. Bu, Novruzun həm də bərabərlik bayramı olması şəklində izah edilir.

Vacib inanclardan biri də heç bir evin ocağının üstünün boş qalmamasıdır. Bu da hər evin bərəkətinin qorunması zərurəti anlamına gəlir. Bayram ərəfəsi və bayram günlərində ehtiyacı olanlara yardım göstərilməsi də vacib sayılır. Bayrama qədər bütün borcların ödənilməsi zəruridir. Bəxti açılmayanlar da yaddan çıxarılmayıb. Bayram gecəsi və çərşənbə axşamları onlar da su kənarına gedib suyun üstündən tullanırlar ki, bəxtləri açılsın.

Novruz bayramının hər kəsin təzə paltarlarını geyinməsi, çərşənbə axşamları və bayram axşamı hər bir həyətdə tonqal qalanması, bayram axşamı uşaqların qurşaq atmaq kimi adətləri də Lahıcda yaşanıb. Qeyd olunanlara bayram axşamları evlənmək ərəfəsində olanların nişan üzükləri aparmaları, xoruz və qoç döyüşdürmələri, at yarışlarının keçirilməsi, rənglənmiş yumurtaların döyüşdürülməsi, küsənlərin barışması kimi adətlər də daxildir. Bayram günü uşaqların evləri gəzib bayram payı almaları, səməni halvası, şəkərçörəyi bişirilməsi də adətlər sırasındadır.

Keçən il Lahıc kəndinə məxsus olan “Lahıc misgərlik sənəti” UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Hazırda Lahıc misgərlik sənətindən başqa Azərbaycanın muğam ifaçılığı, aşıq sənəti, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti, o cümlədən də Novruz bayramı, UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısında, həmçinin çövkən-ənənəvi Qarabağ atüstü oyunu isə UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer alır.

***Əli SƏLİMOV,***
***“Azərbaycan”***

# 100 yaşlı Məxan babanın arzuları böyükdür



Lerikin qədim yaşayış məskənlərindən biri Cəngəmiran kəndinin camaatı Novruzu hərtərəfli hazırlıqla qarşılayır. Ötən bahardan sonra burada XVIII əsr abidələrindən Xəlifə Zəkəriyyə türbəsinin 4 hektar sahəsi daşla hasarlanıb, üzlük çəkilib, Şərq üslubunda məhəccərlər və qapılar qoyulub. Türbədəki abidələrə qorunma lövhələri vurulub, mühafizəsinə diqqət artıb. Türbəylə həmyaşıd nil ağacları budanıb, bəzək və gül kolları əkilib.

Cəngəmiran igid oğul-qızları, alimləri, ağsaqqalları və ağbirçəkləri ilə ölkəmizdən çox-çox uzaqlarda tanınıb. Fransız yazıçısı və səyyah Aleksandr Düma Azərbaycanda olarkən (1858-ci il) Cəngəmiran kəndi və orada baş verən əfsanəyə bənzər hadisələr haqqında “Qafqaz səfəri” əsərində bəhs etmişdir. Novruz bayramı ərəfəsində əri ilə meşəyə odun gətirməyə gedən cəsur qadın bulaq başında pələnglə rastlaşır. Pələng onların üstünə hücum edərkən qadın ərinin əlindən baltanı alıb yırtıcının başına endirir. Balta pələngin başını iki yerə bölür. Bu hadisəni o vaxt eşidən Qafqaz canişini knyaz Vorontsov qadını Tiflisə dəvət edir, ona medal və pul mükafatı verir. Bu gün də həmin bulaq “Pələng kıştə” (Pələng ölən yer) adlanır. Bulağa gələnlər həmin cəsur xanımı yad edirlər.

Kənd həm də uzunömürlülər məskənidir. Yaşı yüzü ötmüş Bəşir, Babarəhim, İsmayıl, Vahab baba, Qızılgül, Səhər, Xonçi nənə ilə dəfələrlə həmsöhbət olmuşdum. Onlar elin gərəklisi - xarrat, bənna, dəmirçi, xalça ustaları idilər. Yadigarları, barmaqlarının izi hər evdə qalıb.

Yenicə 100 yaşını qarşılayan Məxan Məmmədəli oğlu da Cəngəmiranın hörmətli ağsaqqalıdır. Lənkəranın Tırkancül kəndində doğulsa da, isti ocağını Cəngəmiranda tapıb. Bəşir baba onu oğulluğa götürüb, ev-eşiyini, var-dövlətini tapşırıb.

Məxan Məmmədəli oğlu payızda əkinçi olub, yazda biçinçi. Bir müddət “Qızıl əsgər” kolxozunun qoyun-quzusunu otarıb. Altı oğul, beş qız atasıdır. Ömür-gün yoldaşı qəhrəman ana idi. Keçən il dünyasını dəyişib. Nəvə-nəticələrinin sayı yaşı qədərdir. Onları əlinin qabarı, alnının təri ilə dolandırıb.

Ağsaqqalı uzun illərdən bəri tanısam da, bayram ərəfəsi yenidən görüşdük. Novruz süfrəsində həmsöhbət olduq. Dedi ki, bayram günü doğulmuşam. Təvəllüdünü mis nimçəyə yazıblar. Cavanlıqda at çapardıq. Qızlar ağaclardan hulumcaq asıb yellənərdilər. Toran düşən kimi tonqallar qalanardı. Kəndin ortasındakı meydanda əl-ələ verib “Yallı” gedərdik. Nə az, nə çox düz 45 il bayramda Kosa olmuşam. Məhəllə-məhəllə gəzib boyanmış yumurta, qovurğa, qoz-fındıq alardıq. Səhər xalanın bişirdiyi səməni halvasının dadı hələ damağımdan getməyib.

Ağsaqqal söhbətinə azca ara verdi. Köks ötürüb yaddaşını bir də yoxladı. Ötən illəri yada salıb sözünə davam etdi:

- Bayram axşamı qızlar qulaq falına çıxardılar. Hərə bəyəndiyi qapını seçərdi. Xoş sözlər eşidib şad-xürrəm qayıdardılar. Kimin kimdə gözü olduğu bilinərdi. Az keçməzdi elçilər yola düzələrdi. Mağar qurular, aşıqlar çalıb-oxuyardılar.

Bayram günü küsülülər barışardı. Barışığa inad göstərənlərin qapılarını kəsib:

*Xalçanın eni beş qarış,*
*Gülü, butası naxış.*
*Bayram küsülü sevməz,*
*Qadan alım, gəl barış*

- deyərdik. Sözümüzü yerə salan olmazdı. Küsülülər bir-birinə əl uzadardılar. Bizə qoşulub tonqalın yanına gələrdilər.

Tonqalın yanından qayıdan kimi evlərə papaq, qurşaq atmaq başlanardı. Oğlan dəsmalının qırağını düyünlərdisə, deməli, bu evdən umacağı var. Dəsmal geri qayıtmayanda bilinərdi ki, qızın ata-anası oğlanı bəyənməyib.

Məxan Abbasov xoşbəxt qocalığını yaşayır. Deyir ki, övladları ona qayğı göstərirlər. Tibb işçisi oğlu Sərhəng sağlamlığına, yeyib dincəlməsinə nəzarət edir. Hökumətin diqqətindən də razıdır. Pensiyası xeyli artıb. Aldığı pulu nəvələrinə xərcləyir.

El ağsaqqalının arzularını soruşduq. Dedi ki, birinci arzusu əmin-amanlıq şəraitində ömür sürməkdir. İkincisi torpaqlarımızın qaytarılmasını istəyir. Allah qoysa, rəhbərimiz düşmənin zəbt etdiyi yerlərimizi qansız-qadasız alar. 100 yaş ömrün yarısıdır. Xoş günlərimiz hələ qabaqdadır.

Biz də Məxan babanın arzularına qoşulduq.

***Həmzə VƏLİMƏMMƏDOV,***
***əməkdar jurnalist***

# Elimizə Novruz gəlir











*Foto A.MƏMMƏDOVUNDUR*

# Qubadlılılar baharın gəlişini Sumqayıtda qeyd etdilər

Bu il də qubadlılılar Novruz bayramını qeyd etmək üçün köçkünlərin kompakt məskunlaşdıqları ərazidə, Sumqayıt şəhərindəki 42-ci məhəllədə yerləşən 10 saylı peşə liseyinin həyətinə yığışmışdıar.

Tədbirdə Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov, rayonun idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər. Bayram şənliyindən öncə yandırılmış tonqal ətrafında məcburi köçkünlərlə görüşən rayon icra hakimiyyətinin başçısı Malik İsaqov onları bayram münasibətilə təbrik etdi. Qeyd etdi ki, Novruz ümumxalq bayramı kimi uzun əsrlərdən bəri yurdumuzun hər bir guşəsində müxtəlif el şənlikləri və mərasimlərlə qarşılanır. Tanrıya, kainatın nizamına və ana təbiətə sonsuz sev-



ginin parlaq ifadəsi olan bu bayramın qədim ənənələrinin bütün rəngarəngliyi ilə qorunub saxlanılması Azərbaycan xalqının öz tarixi-mədəni keçmişinə yüksək ehtiramını və milli-mənəvi dəyərlərə dərin bağlılığını nümayiş etdirir. Bu bayramda kimsəsizlərə, ehtiyacı olanlara, ahıl insanlara baş çəkmək, onlara bayram sovqatı vermək savab hesab edilir.

Tədbirdə çıxış edən sakinlər ümummilli lider Heydər Əliyevin siyasətinə daim sadiq qaldıqlarını, Prezident İlham Əliyevi hər zaman dəstəklədiklərini bildirdilər. Belə bir inam ifadə edildi ki, tezliklə dövlət başçısının apardığı siyasət nəticəsində torpaqlarımız işğaldan azad ediləcək və belə çərşənbə tonqalları hər kəsin öz yurdunda, öz həyətində alovlanacaq.

Müğənnilərin oxuduqları mahnılar, Novruzun simvolu olan Kosa və Keçəlin, kəndirbazın çıxışları tədbirə xüsusi rövnəq verdi.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***